BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2015

**UOT 94 (479.24)**

# FEVRAL İNQİLABI: ÇARİZMİN SÜQUTU VƏ SİYASİ PARTİYALAR (ikinci məqalə)

**İ.A.QULİYEV**
***Bakı Dövlət Universiteti***
***isa.guliev@mail.ru***

*Fevral inqilabı Rusiyada Romanovlar sülaləsinə son qoydu. Ölkədə hakimiyyət Petroqrad Soveti ilə Müvəqqəti hökumətin əlinə keçdi. İkihakimiyyətlilik yarandı. Milli regionlarda yeni hakimiyyət orqanları formalaşdı. Partiya və təşkilatlar fəallaşdılar.*

**Açar sözlər:** Fevral inqilabı, fəhlə, əsgər, çar, Petroqrad soveti, Müvəqqəti hökumət, siyasi partiyalar, ikihakimiyyətlilik

Göründüyü kimi, burjua partiyalarının monarxiyanı xilas etmək cəhdləri bir nəticə vermədi. Milyukov iki il sonra bu haqda belə yazmışdı: «27 fevral inqilabı bizim tərəfimizdən deyil, bizim idarəmizin əksinə baş verdi». Mütləqiyyətin süqutu ilə mülkədar-monarxist partyialar da dağılmalı idi. Bu belə də oldu. Belə ki, bu siyasi təşkilatlar artıq dövlət köməyindən məhrum olmuşdular. Eyni zamanda onlar zadəganların himayəsindən məhrum olmuşdular. Çünki, onların əksəriyyəti həbs edilmişdi. Bu partiyaların maliyyə dayaqları olmadığına görə öz orqanlarını dərc etdirə bilmirdilər. Nəticədə, mərkəzdə olduğu kimi, yerlərdə də bu tip siyasi təşkilatlar dağılmağa başladı (21, 231).

Burjua partiyaları yeni siyasi şəraitdən çıxış yolu axtarırdı. Mövcud şəraitə uyğun olaraq yeni partiya və siyasi qruplar yaranmağa başladı. Oktyabristlərin əsasında başda A.İ.Quçkov və M.V.Rodzyanko olmaqla Liberal respublikaçı partiyası, proqressistlərin əsasında Radikal demokratik partiyası yaradıldı. Bu partiyaya mülkədar və sənayeçi İ.N.Yefremov və professor D.N.Ruzski başçılıq edirdilər.

İri kapitalist və maliyyəçi A.İ.Putilov və mülkədar İ.İ.Dmitryukov Demokratik respublika partiyasını yaratdılar. Bu partiyaların üçü də burjua cəbhəsinin sağ qanadında yer almışdılar. Onlar azsaylı idilər, burjuaziyanın bir hissəsini, burjualaşmış mülkədarları və ali ziyalı təbəqəsini əhatə edirdi.

Cəmiyyətdə onların təsiri çox az idi (21, 235-236).

Fevral inqilabından sonra burjuaziyanın hakimiyyətə gəlməsi ilə kadetlər iqtidar partiyasına çevrildi. İnqilabın ilk günlərindən başlayaraq kadetlər öz sıralarına yeni üzvlər qəbul edir və təşkilatlarının fəaliyyətlərini daha da genişləndirməyə başladılar. Partiyanın MK-si martın 3-də «Yerli partiya komitələrinin açılması tədbirləri haqqında» qərar qəbul etdi. Petroqradda, Moskvada, Kievdə, Bakıda, Odessada, Nijni Novqoroda və digər yerlərdə kadetlər öz fəaliyyətlərini genişləndirdilər. Mart ayının sonuna yaxın 50-dən çox quberniya və vilayətlərdə kadet təşkilatları yaradılmışdı. Demokratik küitlələri öz tərəfinə çəkmək üçün partiyanın orqanı olan «Reç» qəzetinin səhifələrində geniş təbliğat kompaniyası aparılırdı. Bu ilk növbədə partiyanın proqramındakı 13-cü bəndlə bağlı idi. Proqramın bu bəndində parlamentli monarxiya əvəzinə demokratik respublika qurulmasının vacibliyi qeyd edilirdi.

1917-ci ilin martın 25-də Kadetlər partiyasının VII qurultayı açıldı. Qurultay Rusiyanın dövlət quruluşu haqqında məsələnin müzakirəsi ilə öz işinə başladı. Partiyanın proqramının 13-cü bəndində dəyişiklik edilmişdi. Yeni bənddə deyilirdi ki, «Rusiya demokratik parlamentli respublika olmalıdır» (8, 144).

İnqilabın ilk günlərindən etibarən burjuaziya kadetlərin ətrafında sıx şəkildə birləşmişdilər. P.N.Milyukovun rəhbərlik etdiyi Kadetlər partiyası təkcə iqtidar partiyası deyil, eyni zamanda burjuaziya cəbhəsinin siyasi rəhbərliyini ələ keçirmişdi. Ölkənin əksər yerlərində Müvəqqəti hökumətin təmsilçiləri məhz kadetlər partiyasının üzvləri idilər. Moskvada Müvəqqəti hökumətin komissarı N.M.Kişkin, Don vilayətində M.S.Voronkov, Finlandiya üzrə F.İ.Rodiçev və s. kadet partiyasının üzvləri kimi komissar vəzifəsini yerinə yetirirdilər. Vladimir, Odessa, Saratov, Samara, Omsk hərbi dairəsində, Tavriçeski quberniyasında və s. yerlərdəki komissarlar da kadetlər partiyasının üzvləri idilər. Sədr V.A.Xarlamov olmaqla Xüsusi Zaqafqaziya Komitəsinin beş üzvündən üçü kadet idi (14, 42).

Bütün bu faktlar heç də o demək deyildi ki, burjuaziyanın hakimiyyəti möhkəm dayaqlara söykənmişdi. 1917-ci ilin aprelində inqilabın qələbəsindən sonra Petroqradda baş verən zəhmətkeşlərin ilk kütləvi çıxışı burjua hakimiyyətinin nə qədər zəif olduğunu aşkar etdi. Nəticədə, əsas burjua partiyalarının liderləri-Milyukov və Quçkov Müvəqqəti hökumətdə tutduqları vəzifələrindən getməyə məcbur oldular. Quçkov bu hadisəni belə şərh edirdi: «Mən hakimiyyətdən ona görə getdim ki, hakimiyyət sadəcə olaraq yox idi». Kadetlərin lideri Milyukov isə etiraf edirdi ki, «mən hakimiyyətdən getmədim, məni hakimiyyətdən «göndərdilər»» (21, 240).

İnqilabın gedişində ölkənin ictimai-siyasi həyatında xırda burjuaziyanın demokratiyasının əhəmiyyəti kəskin şəkildə artdı. Xürda burjuaziyanın sosial tərkibi həddən artıq müxtəlif idi. Bura kəndlilərin geniş dairəsi, şəhər və kənddəki ticarət-sənaye müəssisələrinin xırda sahibləri, sənətkarlar, ziyalıların əksər hissəsi və s. daxil idi.

Özlərini sosial-demokrat, fəhlə və hətta marksist partiya adlandıran menşeviklər proletariat uğrunda mübarizədə bolşeviklərin əsas rəqibi kimi çıxış edirdilər.

Fevral inqilabı ərəfəsində menşevik partiyası ideya və təşkilatı cəhətdən dağınıq halda idi. Partiya bir sıra siyasi cərəyanlara parçalanmış, hətta özünün mərkəzi komitəsi belə yox idi. Onun əvəzinə 1912-ci ilin avqustunda menşevik konfransı tərəfindən yaradılmış Təşkilatı komitə fəaliyyət göstərirdi. Menşevizmin ən sağ cinahında Q.V.Plexanov başda olmaqla «Edinstvo» müdaviə qrupu yerləşirdi ki, formal olaraq menşevik partiyasına daxil deyildi. Bununla belə partiya ilə çox sıx əlaqəsi var idi. Menşevik partiyasının sağ qanadını A.N.Potresovun qrupu təmsil edirdi ki, onlar plexanovçulardan heç də fərqlənmirdilər. Menşevizmin əsas cərəyanı hesab edilən Mərkəzin liderləri F.İ.Don, N.S.Çxeidze və İ.Q.Sereteli idilər. Bu qrup «inqilabi müdafiəçilik» mövqeyində dururdular. Partiyanın sol qanadını Y.O.Martovun başçılığı ilə menşevik-beynəlmiləlçi adlanan azsaylı qrup təmsil edirdi (18, 8-9).

İnqilabın ilk günlərindən etibarən menşevik və eserlər Sovetlərdə və həmkarlar ittifaqlarında üstünlük əldə etmişdilər. İlk növbədə, Petroqraf Sovetində, daha sonra isə digər şəhərlərdə yaranan Sovetlərdə menşeviklər və eserlər rəhbər vəzifələri ələ keçirməyə nail olmuşdular. Petroqrad Sovetinin Rəyasət heyətinə ilk iclasda seçilən yeddi üzvündən beşini, İcraiyyə Komitəsinin 36 üzvündən 14-nü menşeviklər təşkil edirdi. Petroqdar Sevetinin sədri, qeyd edildiyi kimi menşevik N.S.Çxeidze oldu (8, 147).

Menşeviklər bu və ya digər dərəcədə Müvəqqəti hökumətin siyasətinə təsir etmək imkanlarından imtina etmək istəmirdilər. Bu işə onları kadetlərə inanmayan kütlə təhrik edirdi. …1917-ci ilin mayın 7-də menşeviklərin və birləşmiş təşkilatların Ümumrusiya kofransı açıldı. Konfransda 44830 üzvü olan 55 təşkilatın nümayəndələri iştirak edirdilər. Konfransın qarşısında müxtəlif cərəyanların birləşməsi məsələsi qoyulsada, buna nail olunmadı. Partiya rəhbərliyi menşeviklərin Müvəqqəti hökumətə daxil olmasını konfrans tərəfindən qəbul edilməsinə nail oldular (8, 148-149).

Menşevik partiyasının filialı kimi Zaqafqaziyanın ən nüfuzlu partiyalarından olan gürcü menşevikləri fəaliyyət göstərirdilər. 1917-ci ilin avqustun sonlarında Zaqayqaziya menşevik təşkilatlarında üzvlərinin sayı 46022 nəfər olmuşdur. Bunların əksəriyyəti Gürcüstan ərazisində qeydə alınmışdır ki, onların sayı 40986 nəfər təşkil edirdi. Bundan başqa Bakıda-2850, Elizavetpolda (Gəncədə)-566, Qarsda-820, Ərzurumda isə-800-dən çox menşevik partiyasının üzvü fəaliyyət göstərmişdir (10, 109-110).

Menşeviklərlə ittifaqda eserlər çıxış edirdilər. Eserlər partiyası da menşeviklər kimi tam deyildi. Hələ birinci rus inqilabı dövründə partiyada ideya və təşkilatı baxımdan dağılma prosesi başlamışdı. Partiya müxtəlif cərəyanlara parçalanmışdı. Birinci Dünya müharibəsinin başlanması ilə eserlər partiyası müdafiəçilik mövqeyində durmuşdular. Onların ideoloqları N.D.Avksentyev və E.K.Breşko-Breşkovskayə idilər. Eserlərin az bir hissəsi, başda V.M.Çernov

olmaqla özlərini beynəlmiləlçi adlandırırdılar.

Fevral inqilabından sonra eser təşkilatları xeyli artmağa başladı. Bu əsasən, aqrar rayonlarda özünü daha çox göstərirdi. Lakin menşeviklər partiyasında olduğu kimi, burada da parçalanmalar baş verdi. Eserlər partiyasının sıralarından M.A.Spiridonova başda olmaqla sol qanad ayrıldı ki, sonradan müstəqil partiyaya çevrildi (18, 10-11).

Fevral inqilabından sonra xırda burjua partiyaları içərisində ən böyüyü eserlər idi. Bu partiyanın üzvlərinin sayının çox olmasına səbəb, inqilabdan sonra zabitlərin, ziyalıların, məmurların, xırda tacirlərin və s. partiyaya olan rəğbətindən irəli gəlirdi (8, 153).

Rusiyada Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra eserlər partiyası kəndli hərəkatından qorxaraq, özlərinin aqrar proqramlarını həyata keçirməkdən imtina etdilər. Bu partiyanın siyasi iflasına və parçalanmasına gətirib çıxaran səbəblərdən biri oldu (13, 45).

Kəndlilər inqilabdan sonra aqrar islahatın həyata keçirilməsini səbirsizliklə gözləyirdilər. Onlar bu islahatın eserlərin proqramı əsasında olacağını güman edərək həmin partiyanı müdafiə edirdilər. Məhz buna görə də eserlərin nüfuzu kəndlilər arasında artırdı. Kənd Sovetlərində və digər təşkilatlarda eserlər mühüm rol oynayırdılar. Eserlərin kəndlərdə nüfuzunun artmasını göstərmək üçün kəndli deputatları Sovetinin Birinci Ümumrusiya qurultayının tərkibinə baxmaq kifayətdir. Belə ki, qurultayın 1115 nümayəndəsindən 537-ni eserlər təşkil edirdi (13, 51).

Eserlər partiyasının üzvlərinin artması, əlbəttə ki, kortəbii prosesin nəticəsi deyildi. Partiya leqal fəaliyyətə başlayandan sonra geniş təbliğat və təşviqat işinə başlamışdı. 1917-ci ilin yazında eserlər partiyasının üzvləri bir neçə yüz min nəfər idi. Onlar 436 təşkilatda, 312 komitədə və 124 qrupla birləşmişdilər. Partiyanın 58 qəzeti nəşr edilirdi (8, 153).

Göründüyü kimi, eser-menşevik bloku böyük nüfuza malik siyasi qüvvəyə çevrilmişdi. Əgər, Fevral inqilabına qədər liberal burjuaziya partiyaları hakimiyyəti zadəgan-mülkədar monarxiyası ilə bölməyə nail olmuşdusa, indi vəziyyət dəyişmişdi. Belə ki, inqilabdan sonra eser-menşevik liderləri hakimiyyəti kadetlərlə bölmək istəyirdilər. Eser və menşeviklər kütlə uğrunda fəal mübarizə aparır və burjuaziya ilə əlaqələri kəsmək istəmirdilər. Digər tərəfdən isə onlar kütlələr arasında nüfuzlarının azalacağından qorxurdular (8, 138).

Petroqrad Soetinə rəhbərlik edən eser və menşeviklər hesab edirdilər ki, Rusiyada burjua inqilabı baş verib və ona görə də, hakimiyyət burjuaziyaya məxsus olmalıdır. Eser-menşevikli Petroqrad Soveti könüllü şəkildə hakimiyyəti burjuaziya və onun partiyalarına vermək qərarına gəldi (21, 233).

Martın 1-də Petroqrad Sovetinin əksəriyyəti menşevik və eserlərdən ibarət olan icraiyyə komitəsi belə bir qərar qəbul etdi: a) Dövlət dumasının müvəqqəti komitəsinə öz mülahizəsinə görə hökumət təşkil etmək hüququ verilsin; b) Sovetin nümayəndələri Müvəqqəti hökumətə daxil olmasınlar; v) Müvəqqəti hökumət aşağıdakı tələbləri yerinə yetirməlidir: bütün siyasi məh-

buslara tam amnistiya versin, söz, ittifaqlar, yığıncaqlar və tətillər azadlığı versin, bütün əsas milli və dini məhdudiyyətləri ləğv etsin, polisi milislə əvəz etsin, yerli özünüidarə orqanlarına demokratik seçkilər keçirsin, əsgərlərə və matroslara vətəndaşlıq hüquqları versin, bütün inqilabçı polkları Petroqradda saxlasın, Rusiyanın dövlət quruluşunun gələcək forması məsələsini həll etməli olan Müəssislər Məclisini tezliklə çağırsın.

Lakin, əksəriyyəti menşevik və eserlərdən ibarət Petroqrad Soveti icraiyyə komitəsinin qəbul etdiyi qərarda dərhal demokratik sülh bağlamaq, torpağı əvəzsiz kəndlilərə vermək, 8 saatlıq iş günü tətbiq etmək tələbləri irəli sürülmürdü. Menşevik və eserlər bu bəndləri proqrama daxil etməkdən imtina etdiklərini onunla əsaslandırırdılar ki, bunların proqrama daxil edilməsi uzun sürən hakimiyyət böhranına, burjuaziyanın hökumət təşkil etməkdən boyun qaçırmasına gətirib çıxacaq. Bütün bunlar isə, onların iddia etdikləri kimi, labüd surətdə çar rejiminin bərpasını təmin edər (17, 481-482).

Burjua partiyaları yaranmış vəziyyətdən tam şəkildə istifadə edərək qeyd edildiyi kimi Müvəqqəti hökumət yaratdılar. Lakin bu zaman Petroqrad Soveti özünün qəbul etdiyi qərarın əleyhinə olaraq eser A.F.Kerenskinin hökumətə daxil olmasına mane olmadı. Daha sonra Müvəqqəti hökumətin tərkibinə Kerenskidən sonra «sosialist nazirlər» sırasına Sereteli, Avksentyev, Çernov və digərləri daxil oldular (13, 62).

Ölkədə yaranmış yeni siyasi şərait ona gətirib çıxardı ki, hakimiyyət faktiki olaraq Petroqrad Soveti ilə burjuaziyanın Müvəqqəti hökuməti arasında bölünmüşdü. İkihakimiyyətliliyin yaranması Fevral burjua demokratik inqilabının ən başlıca xüsusiyyətlərindən biri idi. Dövlət hakimiyyəti rəsmi şəkildə Müvəqqəti hökumətə məxsus olsa da, Sovetlərin razılığı olmadan heç nə edə bilmirdilər (21, 234).

İnqilabın gedişi zamanı ölkədə xeyli sayda Sovetlər yaranmağa başladı. 1917-ci ildə yaranan Sovetlər, birinci rus inqilabı dövründə yaranan Sovetlərdən kəskin şəkildə fərqlənirdi. İndi Sovetlər təkcə şəhərlərdə və sənaye mərkəzlərində deyil, ölkənin bütün ərazilərini əhatə edirdi. 1917-ci ilin martında Rusiyanın bütün quberniya və qəzalarında 600-ə yaxın Sovetlər yaranmışdı ki, bu da 1905-ci illə müqayisədə təxminən 12 dəfə çox idi. Bunların sırasında 242 fəhlə və 116 əsgər Sovetləri var idi. ...Təkcə mart ayı ərzində 91 şəhər və yaşayış məntəqələrində fəhlə və əsgər deputatları Sovetlərinin birliyi baş verdi. 65 halda fəhlə əsgər deputatları Sovetlərinin birləşməsi başa çatdı. İki şəhərdə fəhlə və kəndli deputatları, 11 şəhər və yaşayış məskənlərində fəhlə, əsgər və kəndli deputatları Sovetləri təşkil edilmişdi (17, 20-21).

İnqilabın ilk günlərində yaranmış 242 Sovetlərdən yalnız 27-si bolşevikləri dəstəkləyirdi (8,138). Qeyd edildiyi kimi, Sovetlərdə əsasən eser və menşeviklər böyük nüfuza malik idilər. Bunun isə obyektiv və subyektiv səbəbləri var idi. Bu ilk növbədə bolşeviklərə qarşı aparılan ağır cəza tədbirlərinin nəticəsi idi. Bu proseslər Birinci Dünya müharibəsi illərində xüsusilə güclənmişdi. Bolşeviklərin nümayəndələri həbslərdə, sürgünlərdə və müha-

cirətdə idilər. Fevral inqilabı ərəfəsində bolşeviklər partiyasının sıralarında 24 minə yaxın üzv var idi. Fevral inqilabı həbsxanalarda, sürgündə və mühacirətdə olan bolşevik partiyasının tanınmış üzvlərinin geri qayıtmaları üçün şərait yaratdı. Bunların içərisində A.S.Bubnov, P.A.Caparidze, S.V.Kosior, V.V.Kuybışev, Q.K.Orjenikidze, O.A.Pyatnitski, Y.M.Sverdlov, İ.V.Stalin və digərləri var idi. Fevralın 27-də RSDFP-nin Peterburq komitəsinin üzvləri V.N.Zalejski, N.P.Komarov, F.A.Lemeşov azadlığa çıxdılar. Martın 1-də fəhlələr həbsxanadan F.E.Dzerjinskini, Y.E.Rudzutakı, Moskva bolşevik təşkilatının fəalları N.İ.Şevkovu, F.Q.Titovu, İ.A.Popovu, E.M.Malenkovu və digərlərini həbsxanadan azad etdilər.

Aprelin 3-də demək olar ki, onillik mühacirətdən sonra V.İ.Lenin Rusiyaya qayıtdı. Onunla birlikdə N.K.Krupskaya, İ.F.Armand, Mixa Sxakaya daxil olmaqla 30 siyasi mühacir gəldi (11, 58).

Bolşeviklər partiyasının sıralarına qısa bir zamanda xeyli yeni qüvvələr qoşuldu. Aprelin sonuna yaxın partiya sıralarında 100 mindən artıq üzv var idisə, iyulun sonuna onların sayı 240 minə yaxın, Oktyabr ərəfəsində isə 350 minə yaxın idi (18, 244).

Martın 5-də 1913-cü ildən çar hakimiyyəti tərəfindən bağlanan “Pravda” qəzeti nəşrini bərpa etdi. “Pravda”nın ardınca Moskvada “Sosial-demokrat”, Kievdə “Qolos sosial-demokrata”, Xarkovda “Proletariy”, Samarada “Prifoljskaya pravda”, Tiflisdə “Kavkazskiy raboçiy”, Bakıda “Bakinskiy raboçiy” və s.bolşevik qəzetləri nəşr olunmağa başlandı (11, 58).

Çarizmin devrilməsindən sonra menşevik-eser birliyi Rusiya siyasi partiyalar sistemində orta mövqedə yer almışdı. Kadetlər və bolşeviklər kənar qütblərdə yer almışdılar: birincilər – sağda, ikincilər isə solda. Bu gərgin qarşıdurma fevraldan Oktyabra qədər olan dövr ərzində saxlanmışdı (12, 60).

Petroqradda baş verən hadisələr milli rayonlarda və ucqarlarda da öz təsirini göstərdi. Yaranmış yeni ictimai-siyasi vəziyyətdə milli rayonlarda xeyli sayda siyasi partiyalar yarandı. Milli burjuaziyalar tərəfindən yaradılan partiyaların sayı barədə tarixi ədəbiyyatlarda fərqli məlumatlar vardır. Bu ədəbiyyatlardan birində milli rayonlarda 1917-ci ildə yaranmış burjua partiyaların sayı 10 (21, 236), digərində isə 20-dən artıq olduğu göstərilir (8, 147). Eyni zamanda qeyd edilir ki, bu partiyalardan 18-i hətta Müəssislər Məclisinə seçkilərdə iştirak etmişlər. Bu partiyalar Müvəqqəti hökumətin “müharibəni qələbəyə qədər” siyasətini yekdilliklə müdafiə edir, xüsusi mülkiyyətin toxunulmazlığının tərəfdarı idilər. Onların həmfikir olmadığı məsələlərdən biri - aqrar məsələsi idi. Bu məsələdə dörd təklif irəli sürülmüşdü: birincisi – mülkədar torpaqlarının kəndlilərə pulsuz verilməsi; ikincisi - torpağın pulla alınıb kəndlilərə verilməsi; üçüncüsü – mülkədar torpaqlarının müsadirə edilməsinə qarşı çıxır və bunun “xüsusi mülkiyyətin müqəddəs hüququnun” pozulması kimi təqdim edirdilər; dördüncüsü - bu təklifin tərəfdarları isə ümumiyyətlə feodal torpaq mülkiyyətinin saxlanmasını tələb edirdilər.

Milli burjua partiyalarını kadetlərdən ayıran aqrar proqram deyildi. Bu

məsələdə onlar ortaq məxrəcə gələ bilirdilər. Onlar arasında fikir ayrılığı yaradan milli məsələ idi. Millətçilər inqilabla mübarizədə Müvəqqəti hökumətə müttəfiq kimi baxırdılar və olduqca mülayim tələblərində "vahid və bölünməz" Rusiyanın tərkibindən çıxmayacaqlarını bildirirdilər. Bütün partiyaların demək olar ki, hamısı federativ Rusiya dövlətinin tərkibində siyasi muxtariyyət uğrunda çıxışlar edirdilər. Hətta bu xırda tələblərin yerinə yetirilməsini Müəssislər Məclisinə qədər təxirə salınmasına etiraz etmirdilər. Rusiyadan ayrılma layihələri yalnız inqilabi hadisələrin yüksəlişi dövrü, yəni, 1917-ci ilin payızında yaranmağa başladı (8, 147).

Fevral inqilabından sonra çoxsaylı partiyaların yaranmasına bir sıra səbəblər imkan yaratdı ki, onlardan milli-özünədərkin yüksəlişi, itaət altında olan xalqlarda nisbi siyasi azadlıqların genişlənməsi, mərkəzi ümumrusiya hakimiyyətinin zəifləməsi və ucqarlarda mərkəzdənqaçan qüvvələrin inkişafını göstərmək olar. İstər əvvəl fəaliyyət göstərən, istərsə də yeni yaranmış burjua partiyaları Müvəqqəti hökuməti müdafiə edirdilər (21, 236).

Mərkəzdə baş verən hadisələrin mahiyyəti Bakıda dərhal qiymətləndirilməsə də, artıq martın 3-də Bakı fəhlələri Petroqrad inqilabçılarını birgünlük tətil keçirməklə salamladılar. Elə həmin gün Bakıda keçirilən yığıncaqlarda Müvəqqəti hökumətə sədaqət andları və əmin - amanlığın qorunmasını, ordunun və əhalinin bütün zəruri mallarla təchiz edilməsi öhdəliyi barədə bəyanatlar səsləndi (4, 292). Bütün ölkədə vəziyyət belə idi. Müvəqqəti hökumətin sərəncamı ilə bütün siyasi məhbuslar azad edilirdi (3, 29).

Müvəqqəti hökumət başa düşürdü ki, inqilab Zaqafqaziyanı nəzarətsiz qoymuşdur. Ona görə də hökumətin ilk addımlarından biri bu bölgədə sabitliyin yaradılması cəhdi idi (12, 35). 1917-ci ilin martın 6-da Müvəqqəti hökumətin sədri knyaz Lvovun və Hərbi və Dəniz naziri Quçkovun imzası ilə müharibənin davam etdirilməsinin vacibliyi haqqında döyüşən orduya ünvanlanan müraciəti yayıldı. Qafqaz Ordusunun qərargahına, general Bolxovitinovun adına göndərilən müraciət "Rus ordusunun şanlı zabit və əsgərlərinə" adlanırdı. Müraciətdə əsgər və zabitlərə inamı bir daha ifadə edilir, müharibənin qələbəyə qədər başa çatdırılması üçün Müvəqqəti hökumətin ordunu hər bir şeylə təchiz etməyi boynuna götürürdü (1). Bu müraciətnamə Müvəqqəti hökumətin Zaqafqaziyada baş verən hadisələrə ordu vasitəsi ilə nəzarət etdiyini deməyə əsas verir. Bununla belə, digər milli rayonlarda və ucqarlarda olduğu kimi Zaqafqaziyada mülki hakimiyyətin yaradılması Müvəqqəti hökumətin qarşısında duran əsas vəzifələrdən biri idi.

1917-ci ilin martın 9-da Dövlət Dumasının Müvəqqəti Komitəsi və Müvəqqəti hökumət tərəfindən Zaqafqaziya diyarında mülki idarəçiliyi təşkil etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı (2).

Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM) idarə orqanı kimi Qafqaz canişinliyini əvəz etdi (6, 32). OZAKOM regionun əsas millətlərini IV Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. Komitənin sədri rus kadeti V.A.Xarlamov, üzvləri – azərbaycanlı kadet, sonralar müsavatçı M.Y.Cəfərov,

gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti M.Papacanov, rus kadeti P.Pereverzev idilər. İki gündən sonra nazirlər şurasının sədri Lvovun əmri ilə P.Pereverzev gürcü menşeviki A.Çxenkeli ilə əvəz edildi (4, 293). Lap əvvəldən OZAKOM burada Cənubi Qafqaz millətlərinin qeyri-bərabər təmsil olunması, həm də aqrar məsələdə müəyyən mövqe tutmadığına görə xalq kütlələrinin ona etibar etməməsi üzündən tənqid hədəfinə çevrildi (3, 30).

Qafqaz canişinliyində fərqli olaraq OZAKOM yerli əhalinin mənafeyinə uyğun gəlirdi, çünki bu orqanın üzvləri Dövlət Dumasının Qafqazdan seçilmiş deputatları idi. Onların hər biri eyni zamanda üç milləti təmsil edirdi. Bu cəhət Cənubi Qafqazın idarə edilməsində milli mənafelərin nəzərə alınmasına diqqət yetirildiyini göstərirdi (6, 32-33).

Xüsusi komitə bilavasitə Müvəqqəti hökumətə tabe idi. Bu mülki işləri nizama salmaq üçün təşkil edilmiş və qanunvericiliklə məşğul olmurdu. Bir sıra xarakterik cizgilərinə görə Xüsusi komitə kollektiv canişinliyi xatırladırdı. Lakin çar canişinliyi ilə müqayisədə komitə daha zəif və az nüfuzu olan idarə idi (12, 35).

Müvəqqəti hökumətin 1917-ci il 20 mart tarixli "Dini və milli məhdudiyyətlərin ləğvi haqqında" qərarı ilə "Rusiya vətəndaşlarının bu və ya digər dini etiqad, dini təlim və ya millətə məxsusluğu ilə şərtlənən bütün hüquqi məhdudiyyətlər" aradan qaldırılırdı. Bundan əlavə, milli azlıqların nümayəndələri üçün ordu, dövlət idarələri, məhkəmə orqanları və s. sahələrdə qüvvədə olan məhdudiyyətlər, habelə təhsil müəssisələrinə qəbul zamanı tətbiq olunan faiz norması ləğv edildi. Mülkiyyətin alınması, yaşayış yerinin seçilməsi və hərəkət azadlığı ilə bağlı milli və dini azlıqların nümayəndələri üçün qoyulmuş qadağalar da aradan qaldırıldı.

Həmin qərar, şübhəsiz ki, Rusiyanın milli azlıqlarını tam təmin edə bilməzdi, çünki orada imperiyanın məhkum xalqlarının öz müqəddəratını təyin etmək hüququ, milli dillərin təhsil sistemində tətbiqi üçün lazımi şəraitin yaradılması və s. haqqında heç nə deyilmirdi. Buna baxmayaraq, Müvəqqəti hökumətin yarımçıq addımları belə siyasi fəaliyyət üçün minimal şəraitin yaranmasını və imperiyanın müstəmləkə ucqarlarında etnik proseslərin siyasiləşməsinə təkan vermiş oldu.

Məhz etnik proseslərin siyasiləşməsi Fevral inqilabından sonra keçmiş Rusiya imperiyasının müstəmləkə ucqarlarında, o cümlədən Azərbaycanda milli hərəkatın görünməmiş yüksəlişinə səbəb oldu. Müvəqqəti hökumətin "Yığıncaqlar və ittifaqlar haqqında" dekretinin vətəndaşlara sərbəst toplaşmaq və təşkilatlar yaratmaq hüququ verməsi həmin prosesləri bir qədər də sürətləndirmiş oldu (5, 48-49).

Fevral inqilabı Azərbaycanda mövcud olan siyasi partiya və təşkilatlar üçün çox gözlənilməz olsa da onların fəaliyyətini canlandırmış oldu. İnqilab Azərbaycanda baş verən ictimai-siyasi proseslərə yeni məna verdi. Bununla yanaşı, Azərbaycanın ictimai-siyasi həyatında mühüm amil olan müxtəlif cərəyanlar, partiyalar və təşkilatlarda meydana gəldi (6, 49).

İnqilabdan sonra Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaları aşağıdakı qruplara bölmək olar: 1) mərkəzdəki partiyanın komitələri və ya şöbələri; 2) gizli fəaliyyətdən leqallığa keçənlər; 3) yenidən bərpa olanlar; 4) yeni yaranan partiyalar. Artıq siyasi partiyaların fəaliyyətlərinin yeni mərhələsi başladı.

**ƏDƏBİYYAT**


1. AR SPİHMDA, fond 276, siyahı 7, iş 216
2. AR SPİHMDA, fond 276, siyahı 7, iş 272
3. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı: 1998.
4. Azərbaycan tarixi. 7 cilddə. V c. Bakı: 2008.
5. Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955), Bakı: 2011.
6. İbrahimova A.Z. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi /1917-1918-ci illər/. Bakı: 2010.
7. SSRİ tarixi. Ikinci hissə. 1861-1917. Bakı:1982.
8. Басманов М.И., Гусев К.В., Полушкина В.А. Сотрудничество и борьба. М.: 1998.
9. Бурджалов Э.Н. Вторая русская революция. Восстание в Петрограде. М.: 1967.
10. Буржуазные и мелкобуржуазные партии России в Октябрьской революции и гражданской войне. М., 1980.
11. Великий Октябрь и защита его завоеваний. Т.1., М., 1987.
12. Гасанлы Дж.П. Русская революция и Азербайджан: трудный путь к независимости. 1917-1920. М.: 2011.
13. Гусев К. Крах партии левых эсеров. М.: 1963.
14. Думова Н.Г. Кончилось ваше время… М.: 1990.
15. Знаменский О.Н. Всероссийское Учредительное собрание. Л.: 1976.
16. Иоффе Г.З. Великий Октябрь и эпилог царизма. М.: 1987.
17. Ирошников М.П. Рожденное Октябрем. Л.: 1987.
18. История КПСС. Том третий, книга первая. М.: 1967.
19. Рабинович А. Большевики приходят к власти: Революция 1917 года в Петрограде. М.: 1989.
20. Соболев Г.Л. Петроградский гарнизон в борьбе за победу Октября. Л.: 1985.
21. Спирин Л.М. Крушение помещичьих и буржуазных партий в России (нач. XX в. - 1920). М.: 1977.


## ФЕВРАЛЬСКАЯ РЕВОЛЮЦИЯ:<br>ПАДЕНИЕ ЦАРИЗМА И ПОЛИТИЧЕСКИЕ ПАРТИИ

**И.А.ГУЛИЕВ**

**РЕЗЮМЕ**

Февральская революция покончила в России династию Романовых. В стране власть перешла в руки Петроградского Совета и Временного Правительства. Образовалось двоевластие. В национальных регионах созданы органы местной власти. Активизировались партии и организации.

**Ключевые слова:** февральская революция, рабочий, солдат, царь, Петроградский Совет, Временное правительство, политические партии, двоевластие

**FEBRUARY REVOLUTION:**
**THE FALL OF THE TSARISM AND POLITICAL PARTIES**

**I.A.GULIYEV**

**SUMMARY**

The February Revolution put an end to the Russian Romanov dynasty. The power passed into the hands of the Petrograd Soviet and the provisional Government. There was formed a diarchy. There were established local authorities in the ethnic regions. Parties and organizations became active.

**Key words:** February revolution, working, soldier, Tsar, Petrograd Soviet, provisional government, political parties, diarchy